# ONLARI YAXINDAN TANIYAQ

## *"Zəfər tarixi yazan XTQ əsgəri". 156 səhifəlik bir kitab. Eyni zamanda 40-dan çox oğulun adı, qısa hekayəsi.*

**Hekayə deyincə... Axı hər bir hekayənin müəllifi, onun yazarı olur... Bəs bu oğulların hekayəsini kim yazdı?! Əlbəttə ki, bu hekayələrin müəllifi şəhidlərin özüdür. Qəhrəmancasına döyüşüb adlarını qəlblərə əbədi yazdıran Vətən oğullarımız!**




Dünya mərdin namərd üzərindəki qələbəsinin şahidi oldu. Azərbaycan oğulları eşidib, lakin görmədikləri müqəddəs torpaqlar uğrunda şəhid olmağa hazır idilər. Mərdliklə, qəhrəmanlıqla keçilməz sədləri aşaraq şəhid olub, o yerlərə yeni nəfəs verdilər.

***Deyib igid anası,***
***Anadır Vətən,***
***Bölmüş onun balası***
***Sevgisini tən.***

"Vətən anamızdır" - deyib döyüşən, şəhid olan əsgərlərimiz tarix yazıb gedəsi olsalar da onları heç kəs unutmadı. "Zəfər tarixi yazan XTQ əsgəri" belə igidlərin 40-dan çoxunu daha yaxından tanıtmaq üçün yazılmış kitablardandır. XTQ deyincə, yada düşən əzmkarlıq, qəhrəmanlıq, sədaqət və nəticə olaraq qələbə olur. 44 günlük müharibənin nəticəsi kimi.

Kitabda XTQ əsgəri şəhid Əhməd Laçınovun həyat yolu, eyni zamanda onun ailə üzvləri, dostları və döyüş yoldaşlarının onunla bağlı xatirələri qələmə alınıb. Burada şəhid Əhməd Laçınovla yanaşı, Zaqataladan olan digər şəhidlərin həyatı ilə də qısa şəkildə tanış olmaq mümkündür.

Şəhidlərimizin hər birini fərdi şəkildə cəmiyyətimizə yenidən ruhən də olsa, qaytarmaq üçün dövlət başçımız, Ali Baş Komandan İlham Əliyev gördüyü mühüm işlərlə onları yenidən yaşatmışdır. Hər yerdə şəhidlərin adını daşıyan abidələr və xatirə kompleksləri ucaldılmış, küçə, məktəb və mədəniyyət evlərinə onların adları verilmişdir.

27 Sentyabr Anım, 8 Noyabr Zəfər Günündə ölkənin hər yerində tədbirlər təşkil olunur. Belə tədbirlər sırasında xüsusilə hər il keçirilən möhtəşəm Xarıbülbül Festivalının öz yeri var. Axı Xarıbülbül indi hamımız üçün güllərin ən birincisidir! Qarabağın simvolu olan bu çiçəyin günü-gündən gözəlləşməsi şəhidlərimizin qəhrəmanlığı hesabınadır. 1990-cı illərdən bəri qərənfil nahaq yerə axan qanın rəmzi olaraq şəhid məzarının üzərinə qoyulurdusa, Xarıbülbül fəxr, qürur hissinin simvolu kimi döş nişanı olaraq taxılır.

1990-cı illər Azərbaycan tarixində ağrılı və qanlı səhifə açmışdısa, bu səhifəni 30 il sonra Zəfər, tarixi bağladı. Tarixin axarını dəyişdi. O illərdən bəri axan kədər göz yaşını sevinc göz yaşı əvəz etdi. İtirilən torpaqları, yarımçıq qalan xəyalları qərənfil xatırladırdısa, həmin torpaqlara yenidən qovuşmanı Xarıbülbülün qoxusu ilə hiss etdik.

Şəhidlərimizə həsr edilən, onları yaşadan tədbirlərlə yanaşı, çəkilən sənədli filmlər, yazılan kitablar da müstəsna rol oynayır. Əlmaniz Ələkbərlinin yaşanmış duyğuların, hisslərin əksi olan "Zəfər tarixi yazan XTQ əsgəri" adlı kitabı da onları bir az daha yaxından tanımaq üçün xüsusi əhəmiyyətə malikdir. O igidlərin adlarını necə bilək, üzlərini necə tanıyaq?! "Zəfər tarixi yazan XTQ əsgəri" bu məsələdə bizə kömək olan kitablardandır.

Onları yaxından tanıyaq!

**Aygül ƏLİZADƏ,**
**ADPU, Filologiya fakültəsi, Ədəbiyyat kafedrasının müəllimi.**

Respublika .- 2025.- 15 may(№99).- S.13.